# B İ L D İ R İ Ş

**Hüquqi və fiziki**
**şəxslərin nəzərinə**

“Rəsmi statistika haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən ölkə ərazisində fəaliyyət göstərən bütün hüquqi şəxslər (onların nümayəndəlik və filialları) və fiziki şəxslər statistik müşahidələrin aparılması üçün lazım olan məlumatları Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilmiş həcmdə və müddətlərdə təqdim etməyə borcludurlar.

Rəsmi statistika hesabatı formalarında və Dövlət Statistika Komitəsi tərəfindən göstərilən “Rəsmi statistik hesabatların təqdim edilməsi” elektron xidməti üzrə yaradılmış informasiya sistemində (link - https://www.stat.gov.az/menu/11/) hesabat məlumatlarının son təqdimetmə tarixi öz əksini tapmışdır.

Nəzərinizə çatdırılır ki, hüquqi və ya fiziki şəxsin göstərdiyi fəaliyyət sahəsi üzrə təqdim etməli olduğu rəsmi statistika hesabatlarının təqdimetmə müddəti bitdikdə “Rəsmi statistik hesabatların təqdim edilməsi” elektron informasiya sisteminə giriş bağlanacaq və müvafiq məlumatların təqdim edilməsi mümkün olmayacaqdır. Statistik müşahidələrin aparılması üçün zəruri olan məlumatlar təqdim edilmədikdə və ya vaxtında təqdim edilmədikdə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 389-cu maddəsinə əsasən inzibati xəta törətmiş şəxslər barəsində 300 manatdan 500 manatadək məbləğdə inzibati cərimə tətbiq ediləcəkdir.

**Azərbaycan Respublikasının**
**Dövlət Statistika Komitəsi**